BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2005

# ELXANİLƏR DÖVRÜNDƏ AZƏRBAYCANDA DÜNYƏVİ QANUNVERİCİLİYİN TƏTBİQİ MƏSƏLƏLƏRİ

X.C. İSMAYILOV

*XIII əsrin ortalarında Azərbaycan ərazisində Elxanilər dövlətinin meydana gəlməsi ilə ictimai-siyasi həyatın bütün sferalarında, o cümlədən də cəmiyyətin hüquqi həyatında böyük dəyişikliklər baş verdi. Bu dövrdə digər məsələlərlə yanaşı, hüquqi islahatlar da həyata keçirilmişdi.*

*Məqalədə müsəlman hüququ ilə bahəm fəaliyyət göstərən qanunvericilik aktlarının, hüquqi topluların, müxtəlif sahələr üzrə keçirilimiş islahatların əsasını təşkil edən mühüm fərmanların xüsusiyyətləri araşdırılır, hüququn ayrı-ayrı sahələri ilə bağlı tətbiq edilən yeni normalar təhlil edilir.*

XIII-XIV əsrlərdə Azərbaycanda əsas hüquq mənbəyi qismində müsəlman hüququ çıxış etsə də, ilkin mərhələdə onun normaları, yuxarıda qeyd etdiyimiz kimi, monqol-patriarxal feodal hüququ ilə əlaqəli şəkildə fəaliyyət göstərirdi. Yəni, Elxanilər dövlətinin fəaliyyətinin ilk çağlarında köçəri monqollar və monqol aristokratiyası Çingiz-xanın Yasası əsasında hərəkət edir, bütün idarəetmə və təsərrüfat-məişət məsələləri, mülki və ailə-nigah münasibətləri bu qanunun göstərişlərinə uyğun olaraq tənzimlənirdi. Monqol feodal-patriarxal hüququnun toplusu kimi xarakterizə edilən Böyük Yasanı XIII-XIV əsrlərdə Azərbaycan feodal hüququnun mənbələrindən biri hesab etmək olar.

Məlumdur ki, monqollar Çingiz xan tərəfindən birləşdirilənə qədər Yasa adlandırılan qəbilə adətlərinə rəğmən həyat sürürdülər. Əldə olan məlumatlara görə, Çingiz xan 1206-cı ildə monqol əyanlarının qurultayında ali monqol xanı, yəni xaqan elan edildikdən sonra, onun göstərişinə əsasən qanunlar məcmuəsi tərtib edilmiş və bu toplu "Böyük Yasa" adını almışdı. Yasanın tərtib edilməsi zamanı onun əsasını qəbilə-icma quruluşunun dağılması mərhələsində monqolların içərisində qüvvədə olan, Çingiz xanın vaxtında formalaşmaqda olan feodal-patriarxal cəmiyyətinin tələblərinə uyğunlaşdırılan adətlər təşkil etmişdir[1]. Hüquqi göstərişlərdən başqa Yasa, həm də varislər üçün Çingiz xanın müxtəlif məsləhətlərini, o cümlədən öyüd-

[1] А.А.Ализаде. Фазлуллах Рашид ад-дин. Джами ат-таварих, русск. перевод., т.3, Баку, 1957, с.197.

nəsihətini bildirən normalarla zəngin olmuşdur. Ümumiyyətlə, burada mənəvi-estetik, dini normalarla hüquq normaları üzvi surətdə çulğalaşmışdır.

Çinqiz xanın Yasası metal lövhələrdə cızılmışdı və o hər dəfə yeni xan seçilərkən ucadan səsləndirilirdi. Yasanın tam mətni dövrümüzə qədər gəlib çatmamışdır. Yazılmamış və köçürülməmiş Yasa şifahi olaraq nəsildən nəslə ötürülmüşdür. Bizə məlum olan 33 fraqmentdən əksəriyyəti cinayət hüquq normalarını özündə ehtiva edir. Onlardan yalnız ikisi mülki hüquqi məsələlərə həsr edilmişdir. Ayrı-ayrı fraqmentlərdə ordunun təşkili, ona rəhbərlik haqqında, dövlət başçısının-böyük xanın bəylərlə-feodallarla qarşılıqlı münasibətləri barədə danışılır. Hüquqi normalardan əlavə, Çingiz xanın müxtəlif məsələlərə dair, o cümlədən nəsihət xarakterli qərarları və göstərişləri Yasaya daxil edilmişdi ki, bunlardan da on üçü bizə məlumdur. Onların içərisində od üstündən, süfrə üstündən tullanmaq, axan suda yuyunmaq və ya paltar yumaq və s. kimi qadağanları nəzərdə tutan normalar var idi.

Yasada əks etdirilən mülki-hüquqi normalardan vərəsəlik və ailə-nikah münasibətlərinə aid olan iki fraqment bizə məlumdur. Onların əsasında qeyd edə bilərik ki, əmlak bölgüsü zamanı ailənin böyük oğluna üstünlük verilərək ona daha çox əmlak payı verilirdi. Bununla belə, ata ocağı (kasıblarda yurta, varlılarda əsas aillər, xanlarda başlıca ulus) onun ölümündən sonra kiçik oğula qalırdı. Oğlan övladlarının yetkinlik yaşına yetişməsinə qədər ailə başçısı vəfat edərdisə, müvəqqəti olaraq əmlakı birinci (böyük) arvad idarə edirdi. Uşaqların böyüklüyü də onların analarının birinciliyi ilə ölçülürdü. Yasaya görə qadının böyüklüyü onun yaşı ilə deyil, nikahın bağlanma vaxtı ilə müəyyən edilirdi. Ümumiyyətlə, o dövrdə köçərilərin həyatında qadının rolu yüksək olduğundan (bütün ev təsərrüfatı, döyüşçülərin xidmətə göndərilməsi ilə bağlı hazırlıq, yır-yığış işləri onun üzərinə düşürdü; çox zaman onlar öz ərlərini hərbi yürüşlərdə də müşayiət edirdilər) Yasada qadınların hüquqi vəziyyətinə də müəyyən yer ayrılmışdır.

Nikahın bağlanması zamanı (bu əksər hallarda qadının oğurlanması ilə müşayiət olunurdu) kişi tərəfin müəyyən məbləğdə xərc (başlıq) verməsi, qadının isə öz nəslinin imkanlarına uyğun olaraq cehiz gətirməsi nəzərdə tutulurdu. Yasada kişinin qadının atası evinə köçüb yaşaması kimi adətə də rast gəlinir. Miras əmlakın bölgüsü ilə bağlı yuxarıda gətirdiyimiz fakt istisna olmaqla, birinci və ya sonrakı arvadlardan, yaxud kənizlərdən doğulmasına baxmayaraq, bütün oğlan övladları bərabər hüquqlara malik idilər. Bu da öz növbəsində çoxarvadlılığa yol verilməsi, köçərilərin və döyüşçülərin sayının artırılması ilə əlaqələndirilirdi.

Uşaqların vəziyyəti patriarxal ailə üçün tipik hal sayılan valideynlərə, xüsusilə ataya onların dinməzcə, şərtsiz tabe olmaları ilə xarakterizə olunur. Ailənin acından ölməsinin qarşısını almaq məqsədilə uşaqların satıla bilməsi halları da Yasanın normalarında müəyyən yer tapmışdır. Qız övladlarının nisbətən az hüquqa malik olmaları, nikaha daxil olarkən ata evindən cehiz apardıqları üçün vərəsəlik hüququna malik olmamaları da Yasada öz əksini tapmışdır.

Böyük Yasa formalaşmaqda olan feodal dövlətinin möhkəmləndirilməsinə istiqamətləndirilmişdi. Bu məqsədlə qanunlar toplusunda həddindən

artıq qəddar cəzalar nəzərdə tutulurdu. Yasa, onun göstərişlərini pozmağa görə olduqca qəddar cəzalar müəyyən etmişdi. Bunun təsdiqi kimi belə bir faktı göstərmək olar ki, Yasa ilə qadağan edilən 36 əməldən 13-ü ölüm cəzası ilə cəzalandırılırdı. Yasaya görə yuxarı təbəqənin nümayəndələri təkcə vergilərdən deyil, həm də doqquz dəfəyə qədər cəza verilməkdən azad idilər.

Cinayət normaları cinayətləri və mülki hüquqi pozuntuları fərqləndirməyərək, bütün əməllərə görə ciddi cəzalar nəzərdə tuturdu. Yasada qan intiqamının mövcudluğuna işarə vardır, lakin bu həmin dövrdə getdikcə sıradan çıxmaq üzrə idi.

Əldə edilən məlumatlara görə, xana və müxtəlif yüksək səviyyəli vəzifəli şəxslərə qarşı hər hansı formada xəyanət və tabe olmamaq qəddarcasına cəzalanmaya, yəni müxtəlif üsullarla ölüm cəzasına məhkum edilməyə səbəb olurdu[1].

Yasanın bizə qədər cəlib çatmış fraqmentlərində, başlıca olaraq, ölüm cəzası haqqında məlumatlar üstünlük təşkil edir. Belə ki, adamöldürməyə, qaçmış qulun mənimsənilməsinə görə Yasa ölüm cəzasını nəzərdə tutur. Belə cəzalar əmlak cinayətlərinə görə də müəyyən edilmişdi. Yasaya görə, başqasının atını oğurlamaqda təqsirli bilinən şəxs, oğurlanmış atla yanaşı on baş at da qaytarmalı idi. Təqsirkar şəxsin bu qədər atı vermək imkanı olmadıqda, o, bunun əvəzində öz uşaqlarını verməli, uşaqları olmadığı halda isə ölüm cəzasına məhkum edilirdi. Bu zaman ölüm cəzası məhkumun qoyun kimi kəsilməsi yolu ilə icra olunurdu. Ölüm cəzasının bu və Yasada nəzərdə tutulmuş digər bir sıra növləri monqolların köçəri həyatı ilə bağlı idi. Belə üsulların içərisində kürək sümüyünün sındırılması, kəndirlə boğma, atlara bağlamaqla təqsirkarın bədənini hissələrə parçalama və s. geniş yer tuturdu[2].

Yasaya görə, ölüm cəzası, həm də oğurluğa, üçdəfəlik müflisləşməyə, döyüşdə öz yoldaşına kömək göstərməməyə, qaçmış qulların gizlədilməsinə, əsirlərə onları əsir götürən şəxsdən geyim və yemək verməyə, zinakarlığa, başqasına zərər yetirmək məqsədilə cadugərliyə, düşünülmüş şəkildə yalan danışmağa, təkbətək döyüşdə tərəflərdən hər hansı birinə kömək göstərməyə, başqasının davranışını güdməyə, külü və suyu murdarlamağa, bütpərəst monqolun qoyunu, heyvanı müsəlman kimi kəsməsinə və s. qisimdə əməllər üstündə nəzərdə tutulurdu[3]. Xırda oğurluğa görə (məs., qoyunun oğurlanmasına görə) təqsirkar şəxs üçün ölüm cəzası deyil, qamçılanma və ya da oğurlanmış əşyanın (əmlakın) on qat məbləğini ödəmə nəzərdə tutulurdu.

Ordudakı nizam-intizamı gücləndirmək məqsədilə nəzərdə tutulan sərt cəzalar da müxtəlif əməlləri əhatə edirdi. Belə ki, öz postunu rəisin razı-

---

[1] См. А.А.Али-заде. Социально-экономическая и политическая история Азербайджана в XIII-XIV вв. Баку. 1956, с.272.

[2] С.А.Козин «Сокровенное сказание». Монгольская хроника 1240 г., т.1, М.-Л., 1941, § 203, с.160.

[3] А.А.Ализаде. Фазлуллах Рашид ад-дин. Джами ат-таварих, русск. перевод., т.3, Баку, 1957, с.202.

lığı olmadan dəyişməyə cürət etmiş hər hansı bir döyüşçü ölümə məhkum edilirdi. Döyüş zamanı bir əsgərin hərb meydanından qaçması onunla bərabər bütün onluğun əsgərlərinin ölümə məhkum edilməsinə səbəb olurdu. Ayrı- ayrı hallar üzrə Yasa cərimə cəzası da müəyyənləşdirmişdi ki, bunun da məbləği hər hansı bir konkret halda zərərçəkənin sosial vəziyyətindən asılı olaraq təyin edilirdi.

Elxanilər dövlətinin nəinki ictimai və dövlət quruluşu, həm də hüququ özündən əvvəlki dövlətlərin hüququndan bəhrələnmişdi. Ona görə ki, istər əvvəlki dövrlərdə, istərsə də Elxanilər dövlətində hökmdar fərmanlarının, təliqələrin əksəriyyəti müsəlman hüququnun normaları əsasında qəbul edilir və bu normalar fiqhin ümumi prinsipləri çərçivəsində müəyyən dəyişiklikləri nəzərdə tuturdu. Digər tərəfdən, həmin fərman və təliqələr dövlət hakimiyyətini təmsil edənlər tərəfindən verildiyi üçün dünyəvi qanunvericilik sistemini təşkil edirdi.

Elxanilər dövründə Azərbaycan ərazisində ictimai, sosial-iqtisadi və hüquqi münasibətlərin inkişafına təsir göstərən amillərin içərisində bu dövrdə ayrı-ayrı dövlət başçıları tərəfindən verilən müxtəlif səpgili fərmanlar, eləcə də dövlətdə mühüm vəzifələr tutmuş şəxslər tərəfindən tərtib edilən qanunnamələr, traktatlar, təliqələr mühüm yer tutur.

İlk elxanlardan olan Hülaki xanın və Abaqa xanın vaxtında dövlətin baş vəziri olmuş dahi Azərbaycan mütəfəkkiri və ictimai-dövlət xadimi olan Nəsirəddin Tusi özünün "Əxlaqi-Nasiri" və "Maliyyə haqqında traktat" əsərlərində hüququn, ələlxüsus inzibati, maliyyə, aqrar, cinayət, mülki və prosessual hüququn təkmilləşdirilməsi baxımından çox qiymətli məsələlər qaldırmış və bu normaların dövlətin ictimai-iqtisadi, sosial və hüquqi həyatında tətbiq edilməsinin reallaşdırılması üçün xeyli iş görmüşdür.

Tusi yuxarıda adı çəkilən əsərlərində idarəetmənin qayda-qanunlarının təkmilləşdirilməsindən, xalqın mənafeyinə və rifahının yaxşılaşdırılmasına yönəldilən islahatlar keçirilməsindən danışır və öz konkret təkliflərini bildirir. O, "Əxlaqi-Nasiri" əsərinin üçüncü məqaləsini "Ölkəni idarəetmə qaydaları" adlandırmış və burada dövlətin inzibati və iqtisadi funksiyalarının təhlilini vermişdir. Tusinin fikirlərindən aydın olur ki, o, müəyyən tarixi dövrdə ayrı-ayrı tayfaların, icmaların birləşməsi, ictimai təbəqələrin yaranmasında dövlətin və idarəetmənin zəruriliyini qeyd etmişdir. Tusi Şərq fəlsəfəsinə istinad edərək, belə bir prinsipi əsas götürür ki, rəiyyəti ədalət, fəzilət və hikmət qanunları əsasında idarə etmək lazımdır. Dövlət, hökmdar elə qanunlar verməlidir ki, bu qanunlar hamı tərəfindən qəbul olunsun və yerinə yetirilsin. Əgər hökmdar bir şey deyir, yerlərdə valiləri başqa cür edirlərsə, onda qayda-qanun pozular, hərc-mərclik yaranar, zülm ərşə dayanar[1].

Tusi "Maliyyə haqqında traktat" əsərində maliyyə və vergi sistemində elə dəyişikliklər aparılmasını təklif edir ki, bunlar ilk növbədə istehsalçıların "marağının canlanmasına xidmət etsin. Bunun üçün o, öz dövründə vergilərin toplanmasında özbaşınalığı nəzərə alaraq, əsas dörd vergi növünün tət-

[1] Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri, Bakı, 1980, s.178-215.

biq edilməsini məqsədəuyğun sayır: əkinçilərdən xərac formasında; tacirlərdən tamqa formasında; heyvandarlardan "məral" deyilən vergi; təsadüfi gəlirlər şəklində xəzinəyə daxil olan vəsaitlər. Bunlarla yanaşı o, vergi və rüsumların dərəcələrini, toplanma vaxtını irəlicədən müəyyənləşdirməyi, təbəələrin bu vergiləri ödəmə imkanlarını nəzərə almağı dövlət məmurlarının başlıca vəzifəsi hesab edir[1]. Adı çəkilən "Traktat"da istehsal münasibətləri, torpaq sahibliyi formaları, əhali təbəqələrinin hüquqi vəziyyəti, xüsusilə də tacir və sənətkarlarla dövlət arasındakı qarşılıqlı münasibətlərlə bağlı çoxsaylı təkliflər öz əksini tapmışdır. Ehtimal olunur ki, Tusinin traktat şəklində dövlətə təqdim etdiyi bu təkliflər və islahatlar onun ölümündən (1274) sonra Qazan xanın (1295-1304) həyata keçirdiyi islahatlarda nəzərə alınmışdır.

Ümumiyyətlə, Tusinin dövlət formaları, sosial təbəqələr və onların hüquqi vəziyyəti, idarəetmə qaydaları, hüququn ayrı-ayrı institutları haqqında olan fikirlərinin tətbiqini həm Elxanilər dövründə, həm də sonrakı dövrlərin reallığında görmək olar. Cinayət və cəza məsələlərinə, ədalət mühakiməsi ilə bağlı məqamlara xüsusi diqqət yetirən mütəfəkkir, cinayət törətməkdə təqsiri olan şəxslər barəsində istintaqa tanış olmayan üsullardan istifadə edilməsinin və cismani işgəncələr verilməsinin yolverilməzliyini qeyd edir və belə zorakılığı, qeyri-insani münasibəti ədalət mühakiməsini həyata keçirən qulluqçuların nöqsanı kimi qiymətləndirirdi. Qəzəb ədalət mühakiməsi subyektinin fərdi keyfiyyətlərindən biri kimi səciyyələndirilir və mötədilliyin ifrata doğru pozulması nəticəsində əmələ gələn ədalətsizlik kimi izah edilirdi.

Dünyəvi qanunvericiliyin inkişafına o dövrdə yaşamış digər Azərbaycan mütəfəkkiri, dövlət xadimi, Qazan xanın baş vəziri olmuş Fəzlullah Rəşidəddinin tərtib etdiyi "Dəstur əl-məmləkət" adlı qanunnamə də müəyyən töhvə vermişdir. Bu qanunnamədə ölkənin iqtisadi-sosial həyatına dair qayda –qanundan bəhs edilmiş, xüsusilə vergi, mükəlləfiyyət və cərimələrin növləri, miqdarı, şah və rəiyyət əmlakının hesaba aldırılması, çaparxanaların qaydaya salınması, tikinti işlərinin genişləndirilməsi, şəhər və kəndlərin abadlaşdırılması, sikkə pul vahidinin qaydaya salınması, xəzinəyə daxil olunacaq vergilərin vaxtında toplanılması və s. ilə əlaqədar məsələlər əks etdirilmişdir. Rəşidəddinin tərtib etdiyi digər toplularda – "Vəqfname-yirəb'i Rəşidi"də, "Mükatibati-Rəşidi"də və s.-də təbəqələrin hüquqi vəziyyətinə, aqrar münasibətlərinə, əmlak münasibətlərinə, ümumiyyətlə, mülki, əmək və ailə hüququna aid çoxsaylı normalara rast gəlinir.

Məhəmməd ibn Fəxrəddin Hinduşah Naxçıvaninin tərtib etdiyi «Dəstur əl-katib fi təyin əl-məratib» («Dərəcələrin müəyyən edilməsi zamanı mirzələr üçün rəhbər vəsait») toplusu torpaq mülkiyyəti, məhkəmə və mühakimə icraatı, dövlət quruluşu, pul tədavülü, vergi sistemi, ümumiyyətlə, dövlət idarəçiliyi məsələlərini şərh edir və o dövrün ictimai-siyasi və hüquqi həyatı ilə (ələlxüsus sui-istifadələrlə, özbaşınalıqlarla mübarizə üzrə tədbirlər və qaydalar, nikah-boşanma işlərinin vəziyyəti, dövrün cinayət-

---

[1] Рзаев А.К. Насирэддин Туси /политикоправовые воззрения /, Баку, 1983, с.21-26.

hüquqi vəziyyəti haqqında) bağlı faktiki materialları əks etdirirdi[1].

XIII-XIV əsrlərdə Azərbaycanda mövcud olan hüquq mənbələrinin içərisində Elxani hökmdarı Mahmud Qazan xanın verdiyi fərmanlar mühüm yer tutur. Doğrudur, Qazan xana qədərki hökmdarlar – Hülakü xan, Abaqa xan, Arqun xan və Keyxatu xanın hakimiyyəti illərində bu və ya digər məsələlərlə bağlı müxtəlif səpgidə fərmanlar vermişdilər. Lakin Qazan xanın fərmanları istər ictimai-siyasi, sosial-iqtisadi, dini, istərsə də hüquqi baxımdan mükəmməlliyi ilə seçilir və daha mühüm əhəmiyyət kəsb edirdi. 1295-ci ildən 1304-cü ilə qədər hakimiyyətdə olan Qazan xan yerli feodalları öz tərəfinə çəkmək və öz hakimiyyətini möhkəmləndirmək məqsədilə əsasən dövlətin sosial-iqtisadi və hüquqi həyatını əhatə edən bir sıra islahatlar həyata keçirdi. Bu islahatlar onun vermiş olduğu 40-a yaxın fərmanında öz təzahürünü tapmışdı.

Qazan xan islahatları müxtəlif sahələri əhatə etmişdir. Qazan xan islahatlarının tənzim etdiyi münasibətlər sistem baxımından aşağıdakı bölgüyə ayrıla bilər: İslam dininin qəbulu və möhkəmləndirilməsi barədə qanunvericilik; hərbi iş və qoşun saxlanılmasına dair qanunvericilik; təsərrüfat iqtisadiyyatının idarə edilməsi barədə qanunvericilik; torpaq və rəiyyətin hüquqları barədə qanunvericilik; ticarət-maliyyə qaydaları barədə qanunvericilik; saraydaxili idarəçilik barədə qanunvericilik; daxili qayda-qanunlara əməl edilməsi sahəsində qanunvericilik; ədalət mühakiməsi və mülkiyyət tələbləri haqda qanunvericilik.

İlkin olaraq islam dininin qəbulu haqqında 16 iyul 1295-ci ildə fərman verilmiş, islam dövlət dini elan olunmuş, monqollar kütləvi şəkildə islama keçmişdilər. 1300-cü ildə «Məhkəmə haqqında», «Qazı rütbəsinin verilməsi haqqında», «Dələduzluğun və əsassız iddiaların qarşısının alınması, habelə girovsuz borc alanlar, digər borclular tərəfindən əhdi pozma hallarının aradan qaldırılması haqqında» fərmanlarla məhkəmə-istintaq islahatı, həmçinin «İslam hökmdarının qazılara, şeyxlərə, zahidlərə, alimlərə və mömin şəxslərə təlimatları haqqında» fərmanla müxtəlif məsələləri əhatə edən islahat həyata keçirildi. Məhkəmə islahatı ilə əvvəllər mövcud olmuş qayda – məhkəmə hakimi vəzifələrinin otkupa (iltizama) verilməsi qaydası ləğv olunurdu. Həmin fərmanlara əsasən şəriətə aid bütün məsələləri hakimlər, əmirlər, feodallar qaziyə bildirməli, qazı isə həmin məsələləri öz hökmü ilə həll etməli idi. Başqa heç bir kəsin bu işə qarışa bilməməsi, qazının həbs etdiyi şəxsi kimsənin azad etməsinin yolverilməz olduğu bildirilirdi.

Məhkəmə hakimləri mükəlləfiyyətlərdən azad edilir, vergi ödəmir, evlərində çapar qalmasından, kopçurdan azad edilirdilər. Qazıların ləyaqətini alçadacaq hər bir hərəkət ciddi cəzalandırılırdı. Yeni fərmana görə qazı çəkişən tərəflərin işinə onların tərəfini saxlayan adamlar olmadan baxmalı, monqol və müsəlmanlar arasında olan mübahisələrə məsciddə ayda iki dəfə bitikçi, məliklərin iştirakı ilə baxmalı, hökm onların hamısı tərəfindən imzalanmalı idi. İddia obyekti olan əmlak özgəninkiləşdirilə bilməzdi. Vilayət

[1] Ализаде А.А. Мухамед ибн Хиндушах Нахчивани. Дастур ал-катиб фи тайии ал-маратиб. М., 1976.

qazısı yerli qazıları tə'yin edir, hər ay onların işini yoxlayırdı. Təyin olunmuş qazılardan ədalətli olacaqları barədə iltizam alınır, hər ay qərarların surəti vilayət qazisinə göndərilirdi.[1] Yerli qazılar yalnız borc öhdəçilikləri barədə işlərə baxa bilərdi, daşınmaz əmlak barədə və digər mürəkkəb işlərə isə onlar şəhər məhkəmələri ilə birlikdə baxmalı idilər. Qazı məhkəmə qərarlarını yazmaq, qeydiyyat aparmaq üçün katib götürməli idi. Katibin öz işinə xəyanət etdiyi halda, o, edam olunurdu. Qazılardan alınmış iltizam xüsusi formada tərtib edilir, 30 ildən artıq müddəti olan iddialara baxılacağı təqdirdə cəza veriləcəyi qeyd olunurdu.

Hakimlər həll etdikləri iddialar üçün dövlət tərəfindən müəyyən edilmiş rüsum alırdılar. Katiblər 110 dinarlıq sənəd üçün bir dirhəm, 111 dinardan artıq sənəd üçün 1 dinar, müdəbbir – məhkəmə fərraşı icrası təsdiq olunmuş sənəd üçün yarım dinar almağa haqlı idi. [2] Artıq alan katib və ya müdəbbir saqqalı qırxdırılaraq vəzifəsindən çıxarılırdı.

Qanunun tələbinə əsasən qazılər şahid ifadələrini dəqiq yoxlayır, hökmdə həmin ifadələrə əsaslanmaqla bütün halları şərh edirdilər. Əvvəllər mövcud olan iki şahidin ifadəsinə əsaslanaraq hökm çıxarmaq hallarına yol verilməsi aradan qaldırılırdı. Qazılara bir vəzifə olaraq tapşırılmışdı ki, şahidlərin kimliyini, işdə maraqlı olub-olmamasını, iddiaçı və cavabdeh ilə əlaqəsini aydınlaşdırsınlar və bu baxımdan da ifadəyə qiymət versinlər. İfadələrdə zahiri təmtərağa yox, doğruluğa fikir verilməli, ədalətli və qanuna müvafiq hökm çıxarılmalı, kimsənin hüququ tapdalanmamalı idi. Şahid ifadələrində fikir fərqinə, kəmiyyət, keyfiyyət, məkan, zaman fərqlərinə rast gəlindikdə diqqətlə yoxlanılmalı, hər bir şahid ayrı-ayrılıqda dindirilməli idi.

Məhkəmə hakimlərindən işə baxarkən aidiyyat prinsipinə əməl etmələri tələb edilir, səlahiyyətləri dairəsində olmayan işlərə baxmaları, yurisdiksiyalarından kənar ərazilərə aid sənədləri yoxlamadan təsdiq etmələri qadağan edilirdi. Hökmlərin müvafiq nümunələr əsasında tərtib olunması üçün əyalətlərə məhkəmə hökmlərinin nümunələri göndərilirdi.

Əlahiddə fərmanla torpaq mülklərinin alqı-satqısı üçün xüsusi qayda müəyyən edilmişdi. Həmin qaydaya əsasən torpağın alqı-satqısı zamanı satıcı və alıcının ləkələnməmiş şahidlərlə, zəruri sənədlərlə birlikdə qazının yanına gəlməsi tələb olunurdu. Satıcı satılan torpaq sahəsinə olan hüququnu müvafiq sənədlərin vasitəsilə sübuta yetirməli, sənəd olmadıqda isə yazılı şəkildə mülkə olan hüququnu izhar etməli, şahidlər də eyni qaydada, yəni yazılı formada öz ifadələrini verməli, qazı isə bütün bunları təsdiq etməli idi. Bu qaydanı pozaraq girov qoyulan və ya vəsiyyət edilən, habelə artıq satılmış mülkləri yenidən satmaq istəyən şəxsləri təhqiramiz cəzalar gözləyirdi. Belə ki, həmin şəxslərin saqqalı qırxılır, eşşəyə tərsinə mindirilərək həmin ərazidə gəzdirilirdi. Qazılar tərəfindən belə qaydanın pozuntusuna yol ve-

[1] А.И. Фалина. Реформы Газан-хана. «Ученые записки института Востоковедения», т. XVII, 1959, с. 67.
[2] E. Cəlilov. Azərbaycanın dövlət və hüququ (XIII-XIV yüzillər). Bakı, 1995, s.40.

rildikdə, onların tutduğu vəzifədən azad edilməsi, həm onun, həm də tərəflərin cəzalandırılması nəzərdə tutulurdu[1].

30 illik müddəti olan işlər üzrə iddiaların etibarsız hesab edilməsi haqqında fərmanla bu müddətdən sonra mülkiyyətin hər hansı növü üzrə mübahisələr yolverilməz elan olunurdu. Müxtəlif məsələlərlə bağlı məhkəmə qərarlarının konkret formalarının tərtib edilməsi haqqında fərmanda həmin sənədlərin yığılaraq ümumiləşdirilməsi və hakimlər tərəfindən rəhbər tutulması üçün yerlərə göndərilməsi müəyyən olunurdu.

Torpaq mülkiyyətinin formaları və təmini ilə bağlı islahatlar əkinçilik məsələlərini, torpaqların bütün ölkə ərazisində yenidən bölüşdürülməsi prosesini əks etdirirdi. Bununla yanaşı, «Qoşuna iqta paylanması haqqında», «Xam torpaqların becərilməsi və məskunlaşdırılması haqqında» fərmanlar verilmiş və burada işğalçıların, eləcə də yerli məmurların orta təbəqələrinin yaşayışının zəruri vasitələrlə təmin edilməsi məqsədi güdülürdü. Qoşuna iqta paylanılmasını nəzərdə tutan fərmanla hərbi xidmət nəticəsində iqta torpağı əldə etmiş şəxslərin övladları ordu hissələrində xidmətə daxil olduğu halda həmin torpaq sahəsi miras kimi hərbi xidməti daşıyan övlada ötürülə bilərdi[2].

Dövlət məmurlarının özbaşınalığının və vəzifələrindən sui-istifadə hallarının məhdudlaşdırılması hallarını, habelə maliyyə və vergi münasibətlərini tənzimləyən fərmanlar xüsusi əhəmiyyət kəsb edirdi. Bunların içərisində «Yarlığ və payzların verilməsi işində ciddi qaydanın gözlənilməsi haqqında», «Ulağın (yam vergisi – X.İ.) ləğv edilməsi, çaparların sayının ixtisara salınması və onlar tərəfindən əhalinin sıxışdırılmasının qadağan edilməsi», «Dövlətin bütün ərazilərində çaparlar üçün dayanacaq məntəqələrinin tikilməsi buyuryğynun verilməsi və hakimlərə, digər məmurlara şəxsi evlərdə qalmasının qadağan edilməsi haqqında», «Ölçü, çəki və uzunluq vahidlərinin bütün ölkə ərazisində eyni standartlara gətirilməsi haqqında», saray idarəçiliyi, vergi, ordu, rabitə islahatlarının əsasında duran digər fərmanlar dövlət idarəçiliyinin möhkəmləndirilməsi, ictimai-siyasi və hüquqi həyatın yaxşılaşdırılması baxımından əlverişli şərait yaratmışdı.

Qazan xan rəiyyətin döyüşçülər və feodallar tərəfindən sıxışdırılmasının qarşısını almaq üçün vergiləri azaltmaqla yanaşı, onlara qarşı haqsızlıq edilməsi hallarının aradan qaldırılmasına göstəriş vermişdi. Rəiyyətlərin əmlakını əlindən alan, həmçinin buna şərait yaradan mütəsərriflər haqqında ölüm cəzası tətbiq edilməsi, karvan yollarının mühafizə edilməsi və karvan basqınçılarının, quldurların tutulub məsuliyyətə cəlb edilməsi ilə bağlı tədbirləri özündə ehtiva edən fərmanlar verilmişdi.

Qazan xanın təsərrüfat və iqtisadiyyatın idarə edilməsi barədə islahatları dağıdılmış kənd təsərrüfatı və sənətkarlığın inkişaf etdrilməsinə, xəzinə gəlirinin artırılmasına yönəlmişdi. Qazan xanın hakimiyyətinin əvvəllərində kənd təsərrüfatı ölgün vəziyyətə düşmüş, sənətkarların istehsal etdiyi malların həcmi azalmışdı. Vergi sistemində ədalətsizliklər təsərrüfatı xaraba

---

[1] A.İ.Falina. Cöstərilən əsəri, s.69.

[2] Yenə orada, s.71.

qoymaqda davam edirdi. Buna görə də, o, ilk növbədə vergilərin qaydaya salınması, vergilərin dəqiq müəyyən edilməsi üçün 1304-cü ilin fevralında fərman verərək məhsulun irəlicədən qiymətləndirilməsi qaydasını ləğv etdi.

Vergi sistemində islahata qədər vilayətlərdən vergi yığmaq vilayət hakimlərinə həvalə olunmuşdu, hakimlər istədikləri kimi əhalini soyur, müxtəlif bəhanələrlə əmlakını əllərindən alırdı. Çaparların hər dəfə vilayətə gəlmələri yerli əhalini müflis hala salırdı. Vergilər yığılması üçün əsassız baratlar meydana çıxır, alınmış vergilərin təkrarən alınması adi hal olurdu. Vəzir və əmirlərin rüşvətxorluğu buna imkan verən əsas vasitə idi. Buna görə bir çox rəiyyətlər öz torpağını atıb başqa yerlərə, hətta başqa dövlətlərə qaçırdı. Qazan xan fərmanla yerli hakimlərin barat vergi toplamaq hüququ verən sənəd yazmasını qadağan edib, bütün vilayətlərə bitikçilər göndərərək əhalini sıyahıya aldırıb üzərlərinə kopçur vergisi qoydurdu. İlin əvvəlində bitikçi hər bir kəndliyə adını göstərməklə barat yazırdı. Hər hansı başqa bir şəxsin barat yazması ağır cəzaya – həmin şəxsin edam olunmasına səbəb ola bilərdi. Həmin baratlar divanda möhürləndikdən sonra vilayətlərə göndərilir və onun əsasında vergi yığılırdı. Natural şəkildə verginin gətirilib xəzinəyə verilməsi qadağan edilmişdi. Xəzinəyə yalnız pul verilməli idi. Bütün vilayətlərdə rəiyyətlər, verəcəkləri vergi məbləğini əvvəlcədən bilirdilər. Hər bir rəiyyətin nə qədər vergi verəcəyi barədə siyahıda kənd ağsaqqal və rəisləri imza edirdi. Fərmanın yerinə yetirilməməsinə görə ağır cəzalar verilir, əmirlər, hakimlər belə e'dam edilirdi. Vergi siyahılarının biri böyük divanda, biri də vilayətdə saxlanılırdı.

Fərmana görə verginin məbləği kəndin girəcəyində və ya məscidlərdə yazılıb vurulur və ödənmə müddəti vilayətlər üzrə müəyyən edilirdi. Oturaq əhalidən kopçur vergisinin birinci yarısı yeni ilin 20 günü keçənə qədər, qalan hissəsi sonra, ilin axırına qədər yığılmalı idi. Oturaq əhalidən fərqli olaraq köçərilər həmin vergini ilin əvvəlində tam həcmdə ödəməli idilər. Gömrüklər ərazinin soyuq və isti qurşaqda yerləşməsindən asılı olaraq ilin əvvəlindən və ya sonrakı aylardan birində alınırdı[1]. Həmin qayda iqta torpaqlarına da şamil edilirdi. İqtadarlar öz iqtalarında olan kəndlərdə vergilərin məbləğini iri taxta lövhələrə yazıb rəiyyətlərinə çatdırmalı, vergi həcmini aşmamalı əks təqdirdə cəzalanmalı idilər. Eyni qayda incu, xas-incu və mülk torpaqlarında yaşayan rəiyyətlərə də aid edilirdi. İslahat nəticəsində xəzinəyə pul axını gücləndi, qoşunun saxlanma xərcləri tam ödənməyə başladı. Təsərrüfat işlərində qanunsuzluğa yol verilməməsi üçün hüquqverici sənədlərin tərtibinin xüsusi qaydası müəyyən edilmiş, yarlıq və payz sənədlərinin tərtibini həmin sahə üzrə ixtisaslaşmış əmirlərə həvalə etmişdi.

Dövriyyəyə buraxılan pul sikkələrinin standartlara uyğun hazırlanması üçün tədbirlər görülmüş, saxta pullardan istifadəyə görə ağır məsuliyyət nəzərdə tutulmuşdu. Ticarəti qaydaya salmaq, həcmini genişləndirmək, aldatma və fırıldaqların, qarşısını almaq üçün yüklərin, qızılın, parçaların ölçü vahidi (kafsiz), həcm, çəki vahidi (tağar) dəqiq müəyyənləşdirilmişdi. Xüsusi fərmanla ölçü, çəki və uzunluq vahidləri bütün ölkə ərazisində

---

[1] E. Cəlilov. Göstərilən əsəri, s.30.

eyniləşdirildi. Qızıl və gümüşün çəkilməsi üçün ustalar tərəfindən 8 künclü çəki daşları düzəldilərək üzərinə möhür vurulurdu. Yüklərin çəkilməsi üçün 11 ədəd çəki daşı düzəldilmişdi. Arpa və buğdanın ölçülməsi üçün hər Təbriz qiyaləsi 10 man çəkidə olmalı, hər man 260 dirhəm, 10 qiyalə bir tağar həcmində olmalı idi. Başqa ölçü vahidləri ləğv edilirdi. Digər məhsullar məsələn, düyü, küncüt, noxud və s. üçün də xüsusi qiyalə düzəldilmişdi ki, çəkiləri uyğun olsun. Mayelərin ölçülməsi üçün xüsusi ölçü vahidi-peymanə müəyyən edilmişdi. 1 peymanə 10 man olmalı idi, yarım peymanələr də hazırlanırdı ki, bu da 5 man olurdu. Uzunluq ölçü vahidi – qiyaslar isə Təbriz qiyası etalonunda olmalı idi. Digər qiyaslar ləğv edilir, tətbiqi qadağan olunurdu. Qiyasın hər ucuna möhür vurulurdu ki, saxtalaşdırılması, uzadılıb-qısadılması mümkün olmasın. Həcm ölçülərini saxtalaşdıran və dəyişdirənlər əlləri kəsilməyə, uzunluq ölçülərini dəyişdirənlər edama məhkum olunurdu[1].

Daxili idarəçilik sahəsində də qanunsuzluq və özbaşınalıqların aradan qaldırılması üçün bir sıra tədbirlər görülmüş və fərmanlar verilmişdi. Əyan və əmirlərin çaparlarının özbaşınalıqlarının aradan qaldırılması üçün onların şəxsi evlərdə qalması qadağan edildi. Kənizlərin zorla fahişəxanalara yerləşdirilməsinə son qoyulmuş, oğru, quldur, yolkəsənlərə qarşı mübarizə gücləndirilmişdi.

Soyğunçuların və quldurların təqib olunması və tutulması üçün Qazan xan yeni qaydalar tətbiq edərək onlara himayə edənlərə, karvanı qoyub qaçanlara cəza verilməsini, oğurluq və quldurluq olan yerlərin əhalisinin həmin yerdə baş vermiş quldurluğa görə məsuliyyət daşıması və quldurları axtarıb tutmağa borclu olması qaydasını müəyyən etdi. Oğru və quldurlarla əlaqədar olanların hamısı, hətta xırda oğurluq etmiş şəxslərin də edam edilməsi nəzərdə tutulurdu. Bunun üçün xüsusi dəstə ayrılaraq səlahiyyət verilmişdi. Qazan xan tərəfindən ayrılmış xüsusi xərac yığanlar dəstəsi yollarda durub hər 4 eşşək yükü və ya 2 dəvə yükü mal üçün yarım dinar gömrük alır, yolları oğru və quldurlardan mühafizə edirdilər. Gömrük yasaul vəzifəsi daşıyan əmirin başçılıq etdiyi dəstə tərəfindən alınır, iltizamnamə verilirdi. Yolların əsas yerlərində hörülmüş dirəklərdən gömrük yığanların sayı və gömrüyün məbləği yazılmış lövhələr asılırdı. Lövhələr "ədalət lövhəsi" adlanırdı.

Çaparların yerli əhalinin evində qalmasını qadağan etmək barədə fərman verməklə Qazan xan onların haqsızlığa yol verməsinin qarşısını almaq məqsədini güdmüşdü. Nəinki çaparların, həmçinin əmirlərin, onların mühafizə dəstələrinin də şəxsi evlərdə qalması qadağan edilmişdi. Bu bir çox hallarda onların qanunsuz hərəkətlərə yol verməsinə, ev sahibinin əmlakının israf edilməsinə, hətta namuslarının ləkələnməsinə qədər gətirib çıxarırdı. Qazan xan fərmanla vilayət mərkəzlərində və şəhərlərdə çaparlar üçün karvansaralar tikilməsinə sərəncam verdi. Həmçinin əmirlər və iri feodalların dəvələrini, atlarını saxlayan şəxslərin özbaşınalıqlar etməsi, camaatı sıxışdırması, zorla camaatın əlindən pulunu, əmlakını almasının qarşısını

---

[1] E. Cəlilov. Göstərilən əsəri, s.35.

almaq üçün onların bir yerə toplanmasını, zorakılıqla məşğul olmasını qadağan edərək, eyni hərəkətlərə görə ağır cəzalar verilməsini müəyyən edən fərman verdi. Fərmana görə bu cür əməlləri törədənlərin edam olunması müəyyən edilirdi.

Qazan xan bir sıra saraydaxili xidmətçilərin bu özbaşınalıqlarının qarşısını almaq üçün xüsusi fərman vermiş və bu fərmanla ov quşları və itlərini saxlayanların dəqiq sayını, quş və itlərin miqdarının müəyyənləşdirilib təminatı üçün xəzinədən zəruri miqdarda vəsait buraxılmasına göstəriş vermiş, vətəndaşlardan yemək və quşları öyrətmək haqqı almasını qadağan etmişdi. Məsrəf edilmiş xərcin hesabının aparılması, artıq xərcə yol verilməməsi, smeta üzrə hər bir qartal üçün yem ayrılması, hökmdarın qartal saxlayanlarına nəqd pullar verilməsi müəyyənləşdirilmişdi. Yalnız xəstə olan qartallar və başqa ov quşları üçün altun tamğa ilə möhürlənən baratlarla müəyyən edilmiş miqdarda toyuq və göyərçinləin vilayətlərdən gətirilməsi nəzərdə tutulurdu və bu qaydanı pozmaqla əhalidən artıq qida məhsulları tələb edən məmurların cismani cəzalandırılması qaydası (70 zopa vurulmaqla) müəyyən edilmişdi.

Həmin dövrdə «İşçi Qanun»[1] adı altında fərmanların və digər normativ aktların daxil olduğu sənədlər toplusu tərtib edimiş və mövcud qanunların tətbiqində ziddiyyətli məqamların aradan qaldırılmasına cəhd göstərilmişdi. Bu toplu dövlət idarəçiliyində və mübahisəli məsələlərin həllində mühüm əhəmiyyət kəsb edirdi.

Mülki hüquq münasibətlərini tənzim edən normalar özünün çoxcəhətliliyi ilə seçilirdi. Bu dövrdə torpaq üzərində mülkiyyət formaları dəyişikliyə məruz qalmış, şərti torpaq sahibliyinin iki növü – hərbçilərə verilən iqta torpaq sahibliyi ilə sonradan mülkə çevrilməsi nəzərdə tutulan soyurqal torpaq mülkiyyəti meydana çıxmış, incu və divan torpaq sahibliyinin hüquqi əsasları müəyyənləşdirilmişdi. Mülkiyyətin əldə edilməsinin müxtəlif yolları mövcud idi. Bunların içərisində mülki-hüquqi bağlaşmaları, qanun üzrə vərəsəliyi, dövlət tərəfindən təsərrüfatın canlandırılması məqsədilə ilə yardım şəklində verilən müxtəlif əmlak növlərini (məs., Qazan xanın rəiyyətlərə və müzarilərə toxum, əmək alətləri, yer sürülməsi üçün öküzlər paylaması), əmlakın vəqfə verilməsini, tapıntını və s.-ni qeyd etmək olar.

Əmlaka faktiki sahiblik edən şəxslərin onun qanuni mülkiyyətçisinə çevrilməsi üçün 30 illik iddia müddəti müəyyən edilmişdi. Bu müddət ərzində sahibkar nəinki ona məxsus olan və iradəsindən asılı olmayaraq onun sahibliyindən çıxan əmlak növlərini, habelə feodallar özlərinin qaçmış kəndlilərini geri qaytarmaq hüququna malik idilər[2].

Mülki-hüquqi müqavilələrdən meydana çıxan öhdəliklərin icrası sahəsində mühüm tədbirlər görülmüşdü. Alqı-satqı müqaviləsinin bağlanması müəyyən şərtlərə əməl olunmasını tələb edirdi. Belə ki, tərəflərin hüquq və fəaliyyət qabiliyyətinin olması, satılan əşyanın keyfiyyəti haqqında məlu-

---

[1] Bax: A.İ.Falina. Cöstərilən əsəri, s.65.

[2] Fəzlullah Rəşid əd-Din.. Göstərilən əsəri, s.293; bax: Əlizadə Ə.Ə. Göstərilən əsəri, s.473.

matların verilməsi ilə yanaşı, dələduzluğun aradan qaldırılması üçün satıcının həmin əmlakın sahibi olmasını sübut etməsi qaydası da müəyyən olunmuşdu. Qaydaya görə satıcı satdığı malın qəbaləsini şahidlərin iştirakı ilə məhkəməyə təqdim edir, əqd bağlandıqdan sonra həmin qəbalə "məhkəmə qabında" yuyulurdu ki, gələcəkdə həmin qəbalədən istifadə edib satdığı əmlakı tələb etməsin. Bundan sonra əqd bağlanır, qazi tərəfindən təsdiq edilirdi. Qanunsuz qəbalədən istifadə edənlərin saqqalı qırxılır, qatıra mindirilərək şəhərdə dolandırılmaqla cəzalandırılırdı. Müqavilənin təsdiqinə cavabdeh şəxslərə saxta qəbalələri «məhkəmə qabında yumaq» (ləğv etmək), sahibinin onu vermədiyi halda belə qəbalələrin zorla alınması üçün tədbir görülməsi bir vəzifə olaraq tapşırılırdı.

Həmin dövrdə əhalidən, ələlxüsus yuxarı monqol təbəqəsindən müsəlman olmadığından borc üçün sələm alınması qanuni hesab olunurdu. Buna görə bir çoxları fırıldaq yolla əldə etdikləri pulları yüksək faizlə borc verib yoxsulları daha da yoxsul etməklə varlanırdılar. Bu baxımdan əsassız varlanmanın qarşısını almaq üçün müsəlman huququ qaydalarına müvafiq olaraq borc müqaviləsi bağlanan zaman sələm alınması qadağan edilmişdi. Ümumiyyətlə, islahatdan sonrakı dövrdə yalnız borc müqaviləsi deyil, bütün mülki-hüquqi əqdlərin bağlanması, müqavilələrdən yaranan öhdəliklərin icrası qaydaları, vərəsəlik, ailə-nikah münasibətlərinin, cinayət və cəza məsələlərinin tənzimlənməsi müsəlman hüququnun tələblərinə uyğunlaşdırılmışdı.

Ailə münasibətlərində tərəflərin – ər-arvadın əmlak hüquqları və əmlak məsuliyyəti, qəyyumluq və himayədarlıq, uşaqlara və yaşlı valideynlərə nəfəqənin (alimentin) təyin edilməsi, atılmış və ya itirilmiş uşaqların götürülərək saxlanılmasının hər bir mükəlləfin borcu olması, yetimlərin əmlakının onların böyüməsinə və tərbiyəsinə məsrəf edilməsi, atalığın müəyyən olunması üçün falçı xidmətlərindən istifadə, əmlakın bölüşdürülməsi zamanı müxtəlif kateqoriyalı vərəsələrə münasibət, ayrı-ayrı mülki bağlaşmaların hüquqi nəticələri və s. kimi məsələlərlə bağlı hüquq normaları yeni təfsirlərlə müşayiət olunurdu. Yuxarı təbəqəyə mənsubların miras əmlakının ötürülməsi ilə bağlı yeni qaydalara görə kişi cinsindən uşağı olmayan arvadların incu və mülk torpaqları (əgər kişi daha əvvəl vəfat etmişdisə) o biri arvadlara keçirdi. Qadın cinsli övladlara irsən incu torpağı və mülkün verilməsi nəzərdə tutulmurdu.

İstər islahatlardan əvvəl, istərsə də sonrakı dövrdə fiqhin cinayət və cəza məsələləri ilə bağlı müəyyən etdiyi qaydalar tam qüvvəsi ilə tətbiq olunurdu.

Bu dövrün cinayət hüququnda vergi cinayətlərinə də rast gəlinir. Vergilərin vaxtında ödənilməməsinə görə qalığı olan vergi ödəyicilərinə münasibətdə əsas vergi məbləğinin bir faizi həcmində cərimə tətbiq olunurdu. Müəyyən olunmuş müddətdə vergini ödəməyənlər 70-dək çubuq cəzasına da məruz qalırdılar[1]. Belə cəzaya, həmçinin, əhalidən baratlarda müəyyən

[1] Bax: А.А.Али-заде. Социально-экономическая и политическая история Азербайджана в XIII-XIV вв. Баку. 1956, с.204-257.

olunmuş məbləğdən artıq yığımları həyata keçirənlər də məhkum olunurdular. Vergilərin ödənilməməsinə görə əmlakın müsadirəsi və borcunu ödəyə bilməyənlərin köləyə çevrilməsi kimi cəzalar da tətbiq edilirdi.

Hakimiyyət uğrunda mübarizədə uduzmuş ali təbəqəyə mənsubların içərisindəki siyasi rəqiblər də cinayət-hüquqi repressiyaya məruz qalırdılar. Devrilmiş hakimiyyət nümayəndələrinə qarşı bütöv bir ittiham reyestri – xəzinə oğurluğundan tutmuş dövlətə xəyanətə qədər ittihamlar irəli sürülürdü. Əhali kütlələrinin də dövlət hakimiyyəti və köçəri aristokratlar, məmurlar, əmirlər, vergi toplayıcıları əleyhinə çıxışları, rəiyyətin kütləvi şəkildə öz yerlərini tərk etmələri dövləti cinayətlər kimi qiymətləndirilirdi.

İslahat dövründə ölüm cəzasının tətbiq dairəsi daha da genişləndirilmişdi. Belə ki, müsəlman hüququ ilə müəyyən olunmuş digər ağır cinayət əməlləri ilə yanaşı, əhalinin əmlakının zorla əlindən alınması, əhaliyə qarşı əsassız zorakılıq hərəkətləri, məbləğindən asılı olmayaraq bütün oğurluq və soyğunçuluq əməlləri, uzunluq ölçüsünün dəyişdirilməsi, vergi yığılması üçün saxta baratlar yazılması, müddəti ötmüş iddialara baxılması və həll edilməsi, məhkəmə işləri üzrə müəyyən olunmuş məbləğdən daha artıq rüsumun tutulması halları ağır cəzaya – ölüm cəzasına məhkum edilməklə nəticələnirdi.

## ƏDƏBİYYAT


1. Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв., Баку, 1956.
2. Ализаде А.А. Фазлуллах Рашид ад-дин. Джами ат-таварих, т.3, Баку, 1957.
3. Ализаде А.А. Мухамед ибн Хиндушах Нахчивани. Дастур ал-катиб фи таййи ал-маратиб. М., 1976.
4. Бартольд. В.В. Сочинения. Т.1, М., 1963.
2. Cəlilov E. Azərbaycanın dövlət və hüququ (XIII-XIV yüzillər). Bakı, 1995.
3. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв., Баку, 1981.
4. Гордлевский В.А. Избранные сочинения, т.1. М., 1967.
5. Ərdəbili Yusif. Əl-ənvər li-əməl ul- əbrar. Azərbaycan EA.-nın Əlyazmalar İnstitutu. Şifr S- 210.
6. История Азербайджана. Т.1. Баку, 1958.
7. Козин С.А. «Сокровенное сказание». Монгольская хроника 1240 г., т.1, М.-Л.,1941.
8. Nizam ül-mülk. Siyasətnamə, Bakı, 1989.
9. Piriyev V.Z. Hülakilər və Cəlairilər dövründə Azərbaycanda məhkəmə sistemi və mühakimə icraatı qaydaları. Azərb. EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 1996, №1,2.
10. Piriyev V.Z. Azərbaycan Hülakilər dövlətinin tənəzzülü dövründə. Bakı, 1978.
11. Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri, Bakı, 1980.
12. Рзаев А.К. Насирэддин Туси /политикоправовые воззрения /, Баку, 1983.
13. Sultanov A. Xacə Nəsirəddin Tusinin «Əxlaqi-Nasiri» kitabına ön söz. Bakı, 1980.

14. Петрушевский И.П. Иран и Азербайджан под властью Хулагуидов (1256-1353гг.). В сб. «Татаро-монголы в Азии и Европе». М., 1977.
15. Петрушевский И.П. Из героической борьбы Азербайджанского народа в XIII-XIV вв., Баку, 1941.
16. Фазлуллах Рашид ад-дин. Сборник летописей, т.3, перевод А.К.Арендса, М.-Л., 1946.
17. Фалина А.И. Реформы Газан хана. «Ученые записки института Востоковедения», т. XVII, 1959.

## ВОПРОСЫ ПРИМЕНЕНИЯ ЗАКОНОДАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ В ПЕРИОД ЭЛЬХАНИДОВ

**Х.Дж. ИСМАЙЛОВ**

### АННОТАЦИЯ

С появлением на территории Азербайджана в XIII веке государства Эльханидов во всех сферах общественно-политической, в том числе и правовой жизни азербайджанского общества произошли значительные изменения. В этот период наряду с другими вопросами, проводились и правовые реформы.

В статье рассматриваются особенности законодательных актов, юридических сборников, действующие наряду с нормами мусульманского права и исследуется содержание важнейших фирманов (указов), на основе которых проводились реформы. Вместе с тем, проанализированы правовые нормы, касающиеся отдельных отраслей права.